# AZƏRBAYCANIN ADINI UCALDAN HƏMVƏTƏNİMİZ
# CƏMİLƏ CAVADOVA-SPİTSBERQ

*Öz şərəfli həyatı və möhtəşəm ictimai-siyasi fəaliyyəti ilə doğma Azərbaycanın adını əlçatmaz zirvələrə yüksəltmiş möhtərəm Heydər Əliyev cənabları daim qürur hissi ilə deyirdi: "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".*



**Ulu öndərin həyat fəlsəfəsindən ruhlanan istedadlı həmvətənlərimiz müxtəlif peşə-sənət sahələrində böyük uğurlara imza ataraq daima Azərbaycan bayrağını yüksək kürsülərdə dalğalandırırlar. Belə sənətkarlardan biri, hal-hazırda Amerika Birləşmiş Ştatlarının Texas Universitetin Dallas şəhərindəki filialının professoru, görkəmli orqan ifaçısı, Musiqi sənəti doktoru, Azərbaycan-Amerika Musiqi Fondunun həm təsisçisi və icracı direktoru Cəmilə Cavadova-Spitsberqdir.**

Cəmilə xanım Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açıb. Atası Cəlil Cavadov peşəkar hərbçi, Azərbaycanın ilk kontr-admiralı olub. Bu il qələbəsinin 75 illiyi qeyd olunan Böyük Vətən Müharibəsində Qara dənizdə, Şimal dənizində, Baltik dənizində, Dunay çayında hərbi əməliyyatlarda iştirak edərək şərəfli döyüş yolu keçmiş, müxtəlif orden və medallarla təltif olunmuşdur.

Müharibədən sonra hərbçi peşəsində fəaliyyətini davam etdirən Cəlil müəllim 1952-1971-ci illərdə Azərbaycanın Orduya, Aviasiyaya, Donanmaya Könüllü Yardım Cəmiyyətinin (OADKYC) sədri vəzifəsində çalışaraq, 1968-ci ildə kontr-admiral ali hərbi rütbəsinə yüksəlib. Anası Gülşən xanım ixtisasca tibbi işçisi olsa da, bütün həyatını ailəsinə ayırıb, övladlarını boya-başa çatdırmağa həsr edib.

Cəmilə Cavadova: *"...Uşaq yaşlarımdan atama oxşamağa çalışmışam. Atamı öz dünyamda qəhrəman hesab etmişəm. Onu hərbi geyimdə görəndə qürur hissi duyurdum. Hərbi paradlarda əlindən tutub addımladığım günləri həyatımın ən xoşbəxt anları hesab edirəm. Atam vətənini qəlbən sevən bir şəxs idi. Həyatda dörd qız övladına müstəqil olmağı, müvəffəqiyyət üçün daim mübarizə aparmağı öyrətməyə çalışıb. Valideynlərimiz bizdə təhsilə, musiqiyə, vətənə məhəbbət aşılamışlar..."*

2018-ci ildə AMEA Milli Azərbaycan Tarixi Muzeyinin şöbə müdiri, dosent Səbuhi Əhmədovun Cəlil Cavadova həsr olunmuş "Admiral Cavadov: həyatı və döyüş yolu" kitabı işıq üzü görüb.

## Peşəkar musiqi sənətinə aparan yollar

*Cəmilə xanımın ailəsində klassik musiqiyə böyük rəğbət olub. Atası Cəlil müəllim akkardeonda, anası Gülşən xanım isə tarda ifa etməyi bacarıblar. Böyük bacısı Həmidə isə peşəkar musiqi təhsili alaraq pianoçu ixtisasına yiyələnib. Anası Gülsən xanımın əsli Qarabağın gözü Şuşa şəhərindəndir. Görkəmli Azərbaycan bəstəkarı Zakir Bağırovla əmi qızı-əmi oğludurlar. Görünür bu genetik amillərin Cəmilə xanımın gələcək peşə seçiminə təsiri olub.*

*Cəmilə Cavadava: "Hardasa 5 yasım olanda bacımın məşğələlərindən ruhlanaraq eşitdiyim melodiyanı fortepianoda səsləndirməyə çalışırdım. Bir il özəl dərslər aldıqdan sonra, yeddi yaşım tamam olanda atam məni Bülbül adına Orta İxtasas Musiqi Məktəbinə gətirdi. O zamanlar tədris ocağının direktoru bəstəkar Nazim Əliverdibəyov idi. Mən sınaqları uğurla verib məktəbə qabul olundum".*



## Xoş xatirəli təhsil illəri, unudulmaz müəllimlər...

"Bülbül adına Musiqi məktəbində oxuyarkən ixtisas üzrə müəllimim Nailə xanım Axundova olub. VIII sinfə çatanda elmi araşdırmaya, yazı-pozuya marağım sonda təmayülümü musiqi nəzəriyyəsinə yönəltdi. Üstəlik fortepiano ifaçılığında məndən qat-qat istedadlı şagird yoldaşlarım kimi irəliyə gedə bilmirdim. Təbiətən perfeksionist olduğum üçün ifaçılıq sənəti ilə yollarımı ayırmağı düşündüm".

## Orqan alətinə maraq...

11 yaşım olarkən televizorda İ.S.Baxın orqan üçün məhsur Re minor Tokkata va Fugasını esitdim. Möhtəsəm görünüşlü, mürəkkəb quruluşlu alətin füsunkar səsi məni ganadlarına alib tamamilə fərqli bir dünyaya ucurtdu. Anamdan xahis etdim ki, məni organ sinifinə kecirtsin. Lakin o dövrda həmin məktəbdə organ sinifi mövcud deyildi.





Əməkdar İncəsənət xadimi, professor Tahirə Yaqubova ilə



Jak van Ortmerssen tələbələri ilə

## Arzuların reallaşdığı məkan

"Məktəbi nəzəriyyəçi kimi bitirib Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasına qəbul olunanda sevincimin həddi-hüdudu yox idi. Bir tərəfdən uşaq vaxtı xəyallarımda sənətimlə bağlı qurduğum arzuların həyata keçməsi, digər tərəfdən orqan alətində təhsil almaq şansı yaranmışdı. Tale məni görkəmli orqan ifaçısı, Əməkdar incəsənət xadimi, professor Tahirə xanım Yaqubovanın sinfinə gətirdi. Bir musiqiçi kimi püxtələşməyimdə və müstəqil tənqidi düşüncə tərzimin inkişafında Tahirə xanımın misilsiz rolu oldu. İstedadlı musiqiçi, dərin düşüncəli musiqişünas və bacarıqlı aranjemançı olan ustadımda amerikalıların təbirincə desək, "chemisty", yəni "orqanik müəllim" cazibəsi var. İllər boyu təhsil zamanı münasibətlərimiz müəllim-tələbə ünsiyyətindən ana-övlad yaxınlığına qədər doğmalaşdı. Ona "Mama Taya" deyə müraciət edirdim. Tahirə xanımın qarşımda qoyduğu mürəkkəb yaradıcı tələblər məni daha da irəliyə doğru addımlamağa ruhlandırdı..."

## Xaricdə təhsil illəri – yeni sınaqlar

"Hələ Bakıda oxuyarkən Avropada təhsil alıb, klassik orqan ifaçılığının sirlərinə yiyələnmək arzusu ilə yaşayırdım. Xüsusilə də Hollandiyanın Amsterdam konservatoriyasının professoru, dünyada məşhur pedaqoq Jak van Ortmerssenin (1950-2015) tələbəsi olmaq istəyim sonsuz idi. Bizim tanışlığımızın maraqlı tarixçəsi var: 1992-ci ildə Danimarka krallığının Odense şəhərində keçirilən orqan ifaçılarının beynəlxalq müsabiqəsinə qatılmışdım. Bu hadisə mənim üçün önəmli idi. İlk dəfə orqan ifaçısı kimi müstəqil Azərbaycanın tarixində beynəlxalq müsabiqədə təmsil olunurdum. Münsiflər heyətinin üzvlərindən biri Jak van Ortmerssen idi. 1994-cü ildə isə İçveçdə, Gotenburq şəhərində iki həftəlik orqan ifaçılığı akademiyasında onun rəhbərliyi ilə kurslarda iştirak etdim. Hər iki hadisə mənim üçün orqan dünyasına bir körpü rolunu oynadı. Bir çox çətinliklərdən sonra 1997-ci ildə Hollandiyaya köçərək, Sveling adına Amsterdam konservatoriyasında 2001-ci ilə qədər Jak van Ortmerssenin sinfində təhsil aldım. Hollandiya Şimali Avropa ölkəsi olduğundan burada ra-

sional təfəkkür çox inkişaf edib. Onlar bizlərdən fərqli, emosiyalarını açıq şəkildə büruzə verməkdən çəkinirlər. Dünya görüşlərimiz arasındakı fərqliliyi J.Ortmessenin sinifində başa düşdüm. Professor dərs prorsesini ciddi sistematik şəkildə qurmuşdu. Əsər üzərində işləyərkən hər notun üzərində barmaqların oturuşuna, musiqi cümləsinin səslənişində bədən gərginliyinə, ritorik mənaya, əllərin çəkisinə, artikulyasiya, aqoqika və sairə amillərin kamil şəkildə öyrənilməsinə xüsusi diqqət yetirilirdi. Bir dəfə səbrim tükənərək professoruma: "Mənim beynim texniki detallarla o qədər məşğuldur ki, musiqi hissiyatımı itirirəm" deyə iradımı bildirdim. O, öz növbəsində sakit tərzdə: "Siz, mən deyənləri yerinə yetirin, musiqi öz-özünə yaranacaq" cavabı verdi. O zaman belə metodik yanaşmanı bir qədər qəbul etməsəm də, sonralar mənə nə qədər xeyir verdiyini anladım.

Təhsil illərində müxtəlif qədim tarixə malik orqanlarda konsert vermək səadətini yaşadım. Amsterdamdan bir qədər aralı Harlem şəhərində müqəddəs Bavo kilsəsində1735-1738-ci illərdə qurulan "Christian Müller" orqanında (V.A.Motsart 11 yaşında bu alətdə çalmışdır) və Alkmaar şəhərində müqəddəs Lorentso kilsəsində 1645-1723-cü illərdə inşa olunan "Hagerbeer & Schnitger" orqanında çıxışlarımı misal çəkə bilərəm.

Hollandiyada yaşadığım dövr həm sənətimin, həm də həyatımın yeni tələblər üzərində formalaşmasında həlledici rol oynadı. Əcnəbi ölkə cəmiyyətinin həyat tərzi, təfəkkürü, davranışları və ümumən dünyagörüşü haqqında təsəvvürlərim burada təhsil aldığım zaman kamilləşdi. Əldə etdiyim misilsiz təcrübə sonralar mənə böyük kömək oldu. Əgər mənə: "O illərə qayıtmaq istərdinizmi?" sualını ünvanlasanız, "Şübhəsiz!" deyə cavab verərəm.



Lenora McCroskey

## Okeanın o biri tərəfində - Amerikada yeni həyat

"Hollandiyada təhsilimi başa vurub Amerika Birləşmiş Ştatlarına yola düşdüm. Şimali Texas Universitetində professor Lenora McCroskeynin rəhbərliyi altında ifaçılıq üzrə doktorluq dissertasiyası müdafiə etdim. Amerika Musiqi Kolleclərində iki cür elmi dərəcə müəyyən edilib: musiqişünaslar və musiqi nəzəriyyəsi sahəsində çalışan mütəxəssislər üçün ənənəvi Fəlsəfə Doktorluğu (Ph.D - Doctor of philosophical science) və Musiqi İncəsənəti Doktorluğu (DMA - Doctor of Musical Arts). Sonuncu dərəcə ifaçılıq sənətinə malik mütəxəssislərə verilir. Bu dərəcəni qazanmaq üçün dörd iri həcmli konsert proqramı ilə çıxış etmək lazımdır. Sonuncu konsert zamanı, həmçinin tezis-dissertasiya müdafiə etməlisən. Mənim tədqiqat mövzum Holland bəstəkarı Antoni van Noordutun 1659-cu ildə nəşr etdiyi "Tabulatuurboeck van Psalmen en Fantasyen" ***(Psalmlar və Fantaziyaların tabulaturası)*** əsərinin tarixi mahiyyəti və analitik təhlilinə həsr olunmuşdu..."

## Doğma Azərbaycan mədəniyyəti ilə bağlı layihələr

"Qürbətdə yaşamağıma baxmayaraq, əziz vətənimlə daim əlaqə saxlayıram. Azərbaycan mədəniyyəti, musiqisini dünyanın hər yerində hər zaman təbliğ etməyə çalışıram. Repetuarım daima milli bəstəkarlarımızın əsərləri ilə yenilənir. 2016-cı ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə "Qara Qarayev: orqan üçün köçürmələr" musiqi albomu işıq üzü gördü. Layihənin həyata keçməsində professor Tahirə xanım Yaqubovanın əməyi misilsiz idi. Məlumdur ki, Q.Qarayev sırf orqan aləti üçün orijinal əsərlər yaratmayıb. Tahirə xanım bu boşluğu doldurmaq üçün bəstəkarın fortepiano, simfonik və balet əsərlərindən müəyyən hissələri orqan aləti üçün transkripsiya etməklə həm Azərbaycan, həm də, xarici ifaçılar üçün dəyərli töhfə vermişdir.

Diskdə 15 prelüd, "Tsarskoye selo heykəli", "Don Kixot" simfonik qravürləri, "İldırımlı yollarla" baletindən "Laylay" və "Ehtiraslı qızın rəqsi", "Yeddi gözəl" baletindən vals - ümumilikdə 23 musiqi nümunəsi yer alıb. Layihənin təqdimatı Ü.Hacıbəyli adına BMA-da 2017-ci ilin fevral ayının 7-də baş tutdu.



Vaşinqtonda Qara Qarayevin 100 illiyinə həsr edilmiş klassik musiqi gecəsi



Vaşinqtonda Qara Qarayevin 100 illiyinə həsr edilmiş klassik musiqi gecəsi

## Musiqiçi və içtimai xadim həyatının vəhdəti

Müasir dövrdə diaspora təşkilatlarının xarici ölkələrdə rolunun aktivləşməsi məni də, bu istiqamətdə müəyyən fəaliyyət göstərməyə ruhlandırırdı. Azərbaycan haqqında həqiqətlərin istər Amerika, istərsə də digər xarici ölkələrin içtimaiyyətinə dolğun çatdırılması üçün bir təşkilata ehtiyac var idi. 2017-ci ilin sonlarında sistematik şəkildə qarşıya qoyduğum vəzifələri həyata keçirmək üçün vahid platforma haqqında düşünməyə başladım. 2018-ci ilin yanvarında yaradılan "Azərbaycan-Amerika Musiqi Fondu" adlı qeyri-hökumət təşkilatının həmtəsisçilərindən biri və icracı direktoruyam.



Vaşinqtonda Qara Qarayevin 100 illiyinə həsr edilmiş klassik musiqi gecəsi

Yarandığımız qisa müddət ərzində fond bir neçə uğurlu layihələrə imza atıb. 2018-ci il, fevralın 15-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi, ABŞ-ın Texas ştatının Denton şəhərindəki Şimali Texas Universitetinin və Azərbaycan-Amerika Musiqi Fondunun təşkilatçılığı ilə görkəmli Azərbaycan bəstəkarı Qara Qarayevin 100 illiyinə həsr olunmuş konsert keçirildi. Proqramda Qara Qarayevin fortepiano prelüdləri, violin üçün sonata, A.S.Puşkinin sözlərinə romanslar, "Don Kixot" simfonik qravürlərindən transkripsiyalar, "Yeddi gözəl" və "İldırımlı yollarla" baletlərindən rəqs nömrələri ifa edildi.



Musiqi körpüsü Humay Qasımzadə və Uilyam Hörter

Maraqlı layihələrdən biri AAMF-nun Azərbaycan Respublikasının Diasporla iş üzrə Dövlət Komitəsinin dəstəyi ilə "Musiqi körpüsü" adlı silsilə konsertlər idi. 2018-ci ilin yanvarın 19-dan 23-dək davam edən tədbirlər Texas ştatının Arlinqtondakı Birinci birləşmiş metodist kilsəsində, Stivenvilldəki Tarleton Dövlət Universitetində, Uiçito-Folsdakı Orta Qərb Dövlət Universitetində keçirildi. Konsertlərdə Amerika bəstəkarlarından Elliot Karterin, Corc Krambın, David Loebin, Kevin Deyin, Azərbaycan bəstəkarlarından Qara Qarayevin və Xəyyam Mirzəzadənin əsərləri səsləndi. Pianoçu Humay Qasımzadə və dünya şöhrətli amerikalı klarnet



Musiqi körpüsü. Afisa


Hao Miao-I mükafat





Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva


Şimali Texas Universitetinin professoru Julia Buşkova

ifaçısı Uilyam Heyter isə gənc bəstəkar Türkər Qasımzadənin "Seen when night is silent" kompozisiyasının premyerasını təqdim etdilər.

Yadda qalan konsertlərin biri, 2018-ci ilin aprelin 23-də Vaşinqton kafedral kilsəsində "Ernest M. Skinner və oğlu" şirkəti tərəfindən qurulmuş orqanda olub. Qeyd etmək istərdim ki, ABŞ paytaxtındakı kafedral kilsədə Azərbaycan bəstəkarlarının orqan üçün əsərləri indiyə qədər heç vaxt ifa olunmayıb. Mən orada çıxış edən ilk orqan ifaçısı oldum. Konsert proqramında İ.S.Bax, F.Mendelson, Qara Qarayev və Vasif Adıgözəlovun əsərləri səsləndi.

Bu il görkəmli cazmen-pianoçu və bəstəkar Vaqif Mustafazadənin 80 illik yubileyidir. Bu münasibətlə Şimali Texas Universitetinin arxivindən AAMF tərəfindən araşdırılan məşhur caz musiqisi tənqidçisi Uyillis Konoverin "Amerikanın səsi" radiosunda 1978-ci və 1985-ci illərdə yayımladığı proqramların mövcud səs yazıları Vaqif Mustafazadə fondunun rəhbəri Afaq Əliyevanın təşəbbüsü ilə Moskvada CD şəklində buraxıldı.

Bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 102-ci ildönümü ilə əlaqədar, mayın 28-də Ü.Hacıbəylinin Azərbaycan Respublikasının Dövlət Himninin insrumental versiyasını on müxtəlif ölkədən ifaçı həmkarlarımla birgə "Dunya Organ İfaçıları Birliyi" layihəsi çərçivəsində onlayn formatda ifa etdik. Həmin əsərin orqan üçün transkripsiyasının müəllifi Tahirə xanum Yaqubovadır.

Hələlik sonuncu layihəmiz isə 2020-ci ilin aprel ayından start götürən görkəmli Azərbaycan bəstəkarı Asəf Zeynallının violin və fortepiano üçün "Muğam üslubunda fantaziya" əsərinin ən yaxşı ifası müsabiqəsidir. COVID-19 pandemiyasının yaratdığı çətinliklərə görə virtual keçirilən müsabiqənin münsiflər heyətində Şimali Texas Universitetinin professoru Julia Buşkova və Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva təmsil olunmuşdular. Dünyanın müxtəlif ölkələrindən göndərilən çıxışların əks olunduğu 14 video yazı münsiflər tərəfindən intonasiya səlistliyi, səs hasiletmə texnikası, təfsir etmə ustalığı və səhnə mədəniyyəti meyarları üzrə qiymətləndirilirdi. 19 avqustda elan olunan nəticələrə görə Hao Miao I mükafata, Andri Isakov və Doori Na isə II mükafata layiq görüldülər. Qaliblər pul və diplomlarla təltif olundular.



Karmel klavir musabiqəsindən

peşəkar səviyyəsi ilə yanaşı mənə çox doğma olan milli intonasiyaların bütün incəliklərini sərbəst şəkildə çatdırmaq ustalığı cəlb etdi. Məlum oldu ki, Andri hazırda violin ixtisasını tədris edən məhşur professor Mark Lakiroviçin tələbəsi olmuşdur. M.Lakiroviç isə əslən bakılıdır və vaxtilə Asəf Zeynallı adına Musiqi Texnikumunda görkəmli azərbaycanlı violin ustası Azad Əliyevdən dərs alıb. Sonda vurğulamaq istərdim ki, Cəmilə xanımın milli mədəniyyətimizin təbliğində apardığı fəaliyyət çox böyük qiymətə layiqdir və növbəti layihənin yüksək səviyyədə təşkil olunaraq keçirilməsi buna bariz misaldır".

Xalq artisti, professor Zəhra Quliyeva: "AAMF-in təsisçisi Cəmilə xanım Cavadova-Spitsbergin təşəbbüsü ilə təşkil olunan müsabiqədə münsif kimi iştrak etməyə dəvətə görə böyük qürur hissi duyuram. A.Zeynallının "Muğam üslubunda fantaziya"sı milli musiqi tariximizdə violin üçün yazılan ilk orijinal pyesdir. Əsərin kamil təfsiri ifaçıdan peşəkar çalğı texnikası və muğamın fəlsəfi dünyasını dərindən duymaq qabiliyyəti tələb edir. Müsabiqəyə ünvanlanan video görüntüləri diqqətlə izlədikcə, iştirakçıların əsərin təfsirinə yüksək peşəkar münasibəti məni duyğulandırdı. On dörd nəfər iştirakçı içərisində ən layiqlilərini seçmək çox məsuliyyətli idi. Amma sonda biz üç iştirakçının - Hao Miao, Andri Isakov və Doori Na üzərində dayandıq. Qaliblər içərisində diqqətimi Andri Isakovun



Karmel klavir musabiqəsindən



Dövlət himni virtual ifada

Dəyərli oxucular, bu dəfə sizləri Amerika Birləşmiş Ştatlarında yaşayan həmvətənlərimizdən biri Cəmilə Cavadova-Spitsberq ilə tanış etdik. Daim qəlbi Azərbaycanla döyünən bu fədakar xanıma gələcək fəaliyyətində uğurlar arzularıq. ❖

**Yavər Neymətli**
Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Myzeyinin aparıcı elmi işçisi, Sənətşünaslıq üzrə fəlsəfə doktoru